# Azərbaycan qüdrətli dövlətə çevrilir



***Müsahibimiz Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elman Nəsirovdur.***

***– Elman müəllim, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bölgələrə, xüsusilə, Qarabağa və Şərqi Zəngəzura mütəmadi səfərlərinin əsas məqsədini nədə görürsünüz?***

– Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bölgələrə intensiv səfərləri davam edir. Bu səfərlərdə əsas məqsəd regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası ilə yerində tanış olmaqdır. Məlum olduğu kimi, həmin proqramlar çərçivəsində regionların siması kökündən dəyişib. Dövlət başçımızın bu səfərlər çərçivəsində iki hədəfi var. Birincisi, cənab Prezidentin təşəbbüsü ilə irəli sürülən infrastruktur layihələr necə icra edilir və perspektivdə bundan sonra atılacaq addımlarla bağlı növbəti təkliflər. Eyni zamanda, növbəti səfərlərdə bu təşəbbüslərin icra mexanizmi ilə yerində tanış olur, hansı səviyyədə yerinə yetirildiyi yoxlanılır. Məsələyə bu baxımdan yanaşdıqda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qobustan, İsmayıllı və Ağsu rayonlarına səfərləri də istisna təşkil etmir.

Dövlət başçımız sonuncu səfər zamanı regionların tərəqqisindən söhbət açarkən dedi ki, bu inkişafın əsasını qazlaşdırma, içməli su xətlərinin çəkilməsi, əhalinin elektrik enerjisi ilə etibarlı təmin olunması, yol infrastrukturunun yenidən qurulması təşkil edir. Bu dörd məsələ xüsusi əhəmiyyət kəsb edir. Möhtərəm Prezidentimiz dağ rayonu olan İsmayıllıda qazlaşdırmanın 80 faizi keçdiyini yüksək qiymətləndirdi. Bu göstərici Ağsu rayonunda isə 100 faizə yaxındır. Doğrudan da, böyük göstəricidir. Əhalinin elektrik enerjisi ilə daimi təminatına gəldikdə isə hər iki rayonda 10-dan artıq elekrtik yarımstansiyaları tikilib. Elektrik enerjisi təminatı 100 faiz həll olunub. Onu da qeyd edək ki, elektrik enerjisi təminatında ən müasir texnoloji nailiyyətlərdən istifadə olunur. Eyni zamanda, hər iki rayonda 160 çarpayılıq xəstəxana, 100-dən artıq məktəb tikilib və ya yenidən qurulub. Bu göstəricilər özü-özlüyündə Azərbaycanın regionlarının inkişafının göstəricisidir. Digər rayonlarda da oxşar vəziyyətdir. Bəzilərində isə daha yüksəkdir.

Cənab Prezident diqqəti kənd rayonlarında zəruri ərzaq məhsullarının yetişdirilməsinə, ərzaq təhlükəsizliyinin təminatına cəlb etdi. Dedi ki, bu məsələ daim diqqətdə saxlanılmalıdır. Yəni, kənd təsərrüfatı istiqamətli rayonlar faktiki olaraq, əhalinin ərzaq məhsulları ilə təminatında həlledici rola malikdir. Cənab Prezident bu kontekstdə vurğuladı ki, hazırda ərzaq qıtlığı, ərzaq təhlükəsizliyinin təminatı heç zaman olmadığı kimi, aktualdır. Bu məsələlər həmişə aktual olub. Ancaq bugünkü kimi narahatlıq doğurmayıb. Rusiya–Ukrayna müharibəsi bu məsələni həddindən artıq aktuallaşdırıb. Əvvəl deyirdik ki, ərzaq qıtlığı. İndi isə vəziyyət tamam başqadır və ərzaq azlığı aktuallaşa, hətta Yaxın Şərq və Afrikanın bir çox ölkələrində total aclıq ola bilər. Kütləvi şəkildə ac vəziyyətdə olan insanlar Avropaya – harada ki, bu problemlər yoxdur, oraya üz tutacaqlar. Bütün bunların nəticə etibarı ilə hansı təhlükələrin vəd etdiyini proqnozlaşdırmaq bir o qədər də çətin deyil.

Prezident bu məntiqlə ərzaq təhlükəsizliyi məsələsinə toxundu və qeyd etdi ki, bu, bizim üçün də aktualdır. Dövlət başçımız dünyada taxılın və digər zəruri məhsulların qiymətinin artmaqda davam etdiyini diqqətə çatdırdı. Azərbaycan da dünyanın bir parçası olduğundan qiymət artımı ölkəmizdən də təsirsiz ötüşmür. Respublikamız dünya iqtisadiyyatının tərkib hissəsi olduğundan qiymət artımı bizim də ölkəyə idxal olunur. Elə sahələr var ki, biz özümüzü təmin edə bilirik. Məsələn, mal əti ilə özümüzü 90 faiz təmin edə bilirik. Südlə təminatımız 85, quş əti ilə isə 80 faizdir. Əsas hədəfimiz yaxın illərdə bu göstəricilərin 100 faizə çatmasıdır. Bundan ötrü potensial var. Kənd təsərrüfatına, sahibkarlığa ayrılan subsidiyalar eyni məqsədi daşıyır. Ancaq taxıl istehsalında məsələ tamamilə başqadır. Çünki qlobal aclıq və ərzaq qıtlığından danışanda, ilk növbədə, diqqəti taxıl məhsulları cəlb edir. Dövlət başçımız bu məsələdən söhbət açarkən dedi ki, bizim bu il taxılla təminatımız 62 faizdir. Deməli, biz qalan taxılı kənardan almalıyıq. Nəzərə almaq lazımdır ki, taxılı satan ölkələr də ilk növbədə, özlərinin ərzaq təhlükəsizliyi təminatını düşünürlər. Bizim düşünülmüş və ardıcıl siyasətimiz nəticəsində artıq bu problem öz həlini tapmaq üzrədir.

***– Hazırda dünyada yaranmış ərzaq qıtlığına və bahalaşmaya hansı amillər təsir edir?***

– Mən ərzaq qıtlığı yaradan problemin əsas səbəbini Rusiya–Ukrayna müharibəsində görürəm. İstərdim ki, bunu faktlarla sübut edim. Bu müharibəni aparan dövlətlərdən biri taxıl istehsalına görə dünyada birinci, digəri isə beşinci yerdədir. Deməli, taxıl satışında dünyada "bir"lə "beş"in müharibəsidir. Rusiya ildə 32 milyon ton taxıl ixrac edir. Ukrayna isə 18 milyon tondan çox. Bu iki ölkənin müharibəsi total aclığa gətirib çıxara bilər. Bu kontekstdə Azərbaycan Prezidentinin Rusiya ilə reallaşdırdığı siyasət ona gətirib çıxarıb ki, Rusiya tərəfi ilə əldə olunan razılaşmalar bizi belə təhlükələrlə qarşılaşdırmayacaq. Rusiyadan bizə sifariş verdiyimiz qədər taxıl daxil olur. Bu, o deməkdir ki, əhalimizi ciddi qıtlıq gözləmir. Ancaq bu, o demək deyil ki, biz bu sahəyə diqqət ayırmamalıyıq. Ərzaq təhlükəsizliyi təminatı prioritet sahədir və bu sahəyə getdikcə daha çox diqqət yetirilir. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş torpaqlarımız minalardan təmizləndikcə, əkin sahələrimiz də artır. Bu, gələcəkdə ərzaq qıtlığının aradan qaldırılmasında mühüm rol oynayacaq. Dövlət başçımız da müsahibəsində vurğuladı ki, bu il Qarabağ və Şərqi Zəngəzurda 50 min hektar sahədə taxıl əkilib və artıq biçin başa çatıb. Düzdür, müəyyən obyektiv və subyektiv səbəblərdən həmin sahələrdə məhsuldarlıq istənilən səviyyədə olmadı. Buna baxmayaraq, gələcəkdə hədəflərimiz böyükdür. Həmin ərazilərdə yeni aqrotexniki qaydalar tətbiq olunacaq, meliorasiya işləri aparılacaq və istədiyimiz məhsuldarlıq əldə olunacaq.Yəqin ki, növbəti illərdə Qarabağ və Şərqi Zəngəzurda 50 min yox, 100 min hektarda taxıl əkiləcək. Bu da ərzaq qıtlığı ilə bağlı problemlərə böyük dayaq olacaq.

Göründüyü kimi, əhalinin zəruri ərzaq məhsulları ilə təminatı sahəsində qətiyyətli addımlar atılır, mühüm tədbirlər həyata keçirilir. Ən əsası odur ki, bu gün regionlarımızın siması dəyişir, müasir tələblərə cavab verən müəssisələr yaradılır və yeni iş yerləri açılır. Regionların simasının dəyişməsi isə nəticə etibarı ilə insanların rifahının yaxşılaşdırılması deməkdir. Məsələn, Basqal qəsəbəsində yeni 179 yerlik otel istifadəyə verilib və nəticədə 300 nəfər işlə təmin olunacaq. Ağsu rayonunda Aqroparkın yaradılması nəticəsində 200 nəfər işlə təmin olunacaq. Belə müasir infrastrukturun işə salınması həm də işsizlik probleminin aradan qaldırılmasında mühüm rol oynayacaq. Ümumiyyətlə, işsizlik problemi dünyanı narahat edən məsələdir. Xüsusilə, koronavirus pandemiyası təhlükəsi dünyanın başı üzərini alandan sonra bu məsələ daha da aktuallaşdı.

Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində əhali bir o qədər də ciddi problemlərlə üzləşmədi. Söz yox, pandemiya Azərbaycandan da yan keçmədi. Ancaq digər ölkələrdə olduğu kimi, ciddi fəsadlarla qarşılaşmadıq. Hazırda dövlət başçımız mövcud imkan və potensialdan yetərincə istifadə edərək işsizlik probleminin aradan qaldırılmasında mühüm tədbirlərin həyata keçirilməsinə nail olur.

***– Vətən müharibəsi başa çatdıqdan sonra Cənubi Qafqazda yeni reallıqlar yarandı. Ermənistanın bu reallıqları qəbul etməməkdən başqa çıxış yolu varmı?***

– Qələbəmizin yaratdığı reallıqlar beynəlxalq aləmdə də qəbul edilir. Artıq Ermənistan da bu reallıqlarla barışmaq üzrədir. Ayrı yolları yoxdur. İndi dərk etməyə başlayıblar ki, müharibənin, təxribatın, ərazi iddiasının heç bir faydası yox imiş. Ermənistan xülyalarla yaşayırdı. Düşünürdülər ki, Azərbaycan torpaqlarını işğal etməklə "böyük Ermənistan" dövləti quracaqlar. Ancaq düşünmürdülər ki, işğalçılıq siyasəti ilə heç nəyə nail ola bilməyəcəklər. Hadisələrin gedişi də göstərdi ki, vəziyyət getdikcə dəyişir. Hiss etdilər ki, nəinki özlərinin, hətta övladlarının da vəziyyəti getdikcə pisləşir. Əhali acından ölməmək üçün Ermənistanı tərk edib başqa ölkələrə üz tutur. Azərbaycanda isə vəziyyət getdikcə yaxşılaşır. Vətən müharibəsində qazandığımız tarixi Qələbədən bir həftə sonra Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı yenidənqurma, tikinti-bərpa işlərinin əsası qoyuldu. Yeni qəsəbələr, kəndlər salınır, XXI əsrin ən müasir texnologiyaları tətbiq olunur.

İşğaldan azad edilmiş ərazilərdə tikilən evlər Avropadakı evlərə bənzəyir. Cənab Prezident də qeyd edib ki, biz Qarabağı cənnətə çevirəcəyik, yaşıl zona elan edəcəyik. Bunu dünya ictimaiyyəti ilə yanaşı, Ermənistan əhalisi də görür. Müharibədən iki il keçməsinə baxmayaraq, Ermənistan hələ də özünə gələ bilmir. Onsuz da iqtisadi cəhətdən böhran içərisində çapalayan işğalçı ölkədə vəziyyət getdikcə pisləşir. Ölkədə yaranmış daxili qruplaşmaların hakimiyyət davası siyasi böhranı daha da dərinləşdirir.

Son vaxtlar Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən ermənilər cənab Prezidentə müraciət ediblər. Onlar da istəyirlər ki, azərbaycanlılarla bərabər eyni hüquqa malik olsunlar. Ancaq bəziləri isə yaşadıqları Azərbaycan ərazilərini tərk edərkən erməni vandalizmini bir daha nümayiş etdirir, evləri, meşələri yandırırlar. Bu, ermənilərin faşizm xisləti olmasının göstəricisidir. Buna baxmayaraq, həmin ərazilərdə müəyyən nüfuzlu insanlar bu vandalizmi törədən ermənilərə tövsiyə edirlər ki, daha bəsdir, əl çəksinlər bu vəhşilikdən. Çünki gələcəkdə biz qonşu kimi yaşayacağıq. Buna baxmayaraq, erməni xisləti yenə də özünü göstərir.

Artıq Ermənistan dövlətinin Qarabağda yaşayan ermənilərə təsir imkanları tükənib. Digər tərəfdən, Qarabağda yaşayan ermənilər arasında Azərbaycan vətəndaşlığını qəbul etmək istəyənlərin sayı getdikcə artır. Artıq ermənilərin içərisindən də bu vandalizmə qarşı çıxanlar var. Düşünürlər ki, bu vəhşiliyin heç bir faydası yoxdur.

***– Avqustun əvvəllərində erməni təxribatı nəticəsində Qarabağda qarşıdurma baş verdi. Erməni silahlı birləşmələri növbəti dəfə ciddi cəzalandırıldı. Bu hadisə ilə bağlı sizin də fikirlərinizi bilmək maraqlı olardı.***

– Prezident İlham Əliyev Basqalda Azərbaycan Televiziyasına müsahibəsində, xüsusilə, müxbirin "Qisas" əməliyyatı ilə əlaqədar sualını cavablandırarkən postmüharibə dövrünün həllini gözləyən məsələlərlə bağlı mövqeyini bir daha açıqladı. Dövlət başçımız həm ermənilərə, həm də onların havadarlarına ciddi mesaj verdi. Məlum olduğu kimi, avqustun əvvəllərində erməni təxribatı nəticəsində Qarabağda qarşıdurma baş verdi. Möhtərəm Prezidentimiz bu məsələyə münasibət bildirərkən dedi ki, Ermənistan tərəfi növbəti dəfə silahlı təxribata əl atdı. Bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid oldu. Ancaq beynəlxalq aləm də şahid oldu ki, şəhidimizin qanı yerdə qalmadı və bu erməni silahlı birləşmələrinə baha başa gəldi. Azərbaycan Ordusu dərhal "Qisas" əməliyyatı keçirərək qarşı tərəfə, demək olar ki, divan tutdu. Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatı, əslində, təxribatçılara ciddi cəza tədbiri idi. Ermənistan bundan ibrət götürməlidir. Vətən müharibəsində təkcə Ermənistan yox, bütün dünya Azərbaycan Ordusunun gücünü, hərbi taktikasını gördü. Ermənistanın yeganə çıxış yolu sülh müqaviləsini imzalamaqdır. "Qisas" əməliyyatı bu ölkə üçün ciddi mesajdır. İşğalçı ölkə bir daha şahid oldu ki, "dəmir yumruq" yerindədir.

Cənab Prezident dedi ki, dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, özlərini yaxşı aparsınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar. Əfsuslar olsun ki, bu dəfə də onlara dərs verməli olduq. Budəfəki dərs onların yaddaşında uzun müddət qalacaq. "Qisas" əməliyyatı təkcə şəhidimizin qisasının alınması məqsədi daşımırdı. Digər məqsədlər, vəzifələr Ali Baş Komandan tərəfindən qarşıya qoyulmuşdu və bütün vəzifələr uğurla icra edildi.

Ermənistan güman edirdi ki, növbəti hərbi təxribatla, guya, nəyəsə nail olacaq. Bu xülyadır. "Qisas" əməliyyatı onların arzusunu bu dəfə də ürəklərində qoydu. Bu əməliyyatın çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, yenilməz ordumuzun gücü yerindədir. Buna baxmayaraq, biz yeni müharibə istəmirik. Dövlət başçısı bir daha bildirdi ki, biz istədiyimizə nail olmuşuq. Biz istəyirik ki, erməni silahlı birləşmələri Qarabağı birdəfəlik tərk etsinlər. Bu, Ermənistanın öhdəliyidir və 10 noyabr 2020-ci ildə Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib. Biz buna nail olacağıq və nail oluruq.

***Müsahibəni qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***